BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2009*

# TÜRKİYƏ RESPUBLİKASININ CİNAYƏT QANUNVERİCİLİYİNDƏ BƏZİ CİNAYƏT VƏ CƏZA MƏSƏLƏLƏRİ

**E.Q.NƏBİYEV**
***Bakı Dövlət Universiteti***
***nebiyev elbay@email.com***

*Məqalədə XX əsrin 20-ci illərindən başlayaraq Türkiyədə gedən mühüm iqtisadi, sosial-siyasi proseslərin təsiri altında cinayət hüququnun inkişafından, cinayət qanunvericiliyinə edilmiş bəzi dəyişikliklərdən bəhs edilir. Burada, həmçinin türk cinayət hüququ nəzəriyyəsində hüquqşünas alimlərin önə çəkdiyi bəzi cinayət və cəza, təqsir məsələləri, cinayət hüquqpozmasının mühüm əlamətləri işıqlandırılmışdır.*

XIX əsrin 40-cı illərinə qədər Osmanlı imperiyasında cinayət-hüquqi məsələlər "Üsul-ül Fiqh" adlanan islam hüququnun əsasları ilə həyata keçirilirdi. Bu dövrdə həm fiqh kitablarında olan şəri hökmlər (şəriətin nəzərdə tutduğu hökmlər) məcəlləşdirilir, həm də zamanın ehtiyaclarını ödəmək üçün yaradılan təlimat və nizamnamələr şəklində yeni qanunlar ortaya çıxırdı. Bu dövrdə qanunyaratma fəaliyyəti də xeyli genişləndirilmişdir. Bu dövr, Avropa təcrübəsi nəzərə alınmaqla müsəlman hüququnda dəyişikliklər etmək cəhdi ilə əlamətdar olmuşdur. 1840-cı ildə isə Osmanlı imperiyasında 1810-cu il Fransa CM-nin təsiri altında tərtib olunmuş Cəza qanunu* qəbul olundu.

1923-cü ildə Türkiyə Respublika elan olunduqdan sonra ölkədə dövlət sistemində olduğu kimi, hüquq sistemində də radikal islahatlar aparıldı. Dövlət islahatları gedişində imperiya səltənəti və xilafət ləğv edildi və 1926-cı ildə Roman-german hüquq sistemi resepsiya olundu. Türkiyə Respublikasının ilk Prezidenti Mustafa Kamal Paşa Atatürk başda olmaqla türk dövləti qanunvericiliyi müasir dövrün tələblərinə uyğunlaşdırmaq siyasəti irəli sürdü. Bu dövr, yəni 1923-1926-cı illər türk hüququnun vesternizasiyası (qərbləşdirilməsi) ilə səciyyələnir. Müxtəlif Avropa ölkələrinin – Fransa, İsveçrə, İtaliya, Almaniyanın məcəllə və qanunlarından nümunə kimi istifadə olundu.

Cinayət hüququ sahəsində də ciddi dəyişikliklər həyata keçirildi. Cinayət qanunvericiliyinin köklü islahatları ərəfəsində qüvvədə olan cinayət qanunlarına tənqidi qiymət verilmişdir. Bu tənqidi qiymət iki baxımdan: birincisi, cinayət-hüquq normalarının sabitliyi, dayanıqlığı, ikincisi, həyatın tələblərinə cavab verməsi, inkişafda olması baxımından verilmişdir. Qanunların sabitliyi, dayanıqlığı adətən onların tarixi inkişaf şəraiti ilə müəyyən olunur. Qanun sosial-siyasi, iqtisadi proseslərin təsiri

---

* Türkiyədə "cinayət hüququ" deyil, "cəza hüququ" – "Penal Law" ifadəsi işlədilir. "Cəza" sözü latın mənşəli "poena" sözündəndir. Qeyd olunan anlayış Cəza hüququ kimi işlədilsə də, əslində Cəza haqqında hüquq kimi anlanılır.

altında həyatın tələbatından doğmalı, xalqın adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə söykənməlidir. Hər bir yeni qanun qəbul olunarkən bu məsələlər araşdırılmalı və nəzərə alınmalıdır. Türkiyədə cinayət qanunvericiliyinin islahatı ərəfəsində həm qanunvericilər, həm də hüquqşünas alimlər cinayət qanunvericiliyinin inkişaf tarixini öyrənmiş, zamanın süzgəcindən keçən mütərəqqi nə varsa hamısını götürmüşlər. Bütün bunlar Türkiyənin 1926-cı il Cəza Qanununda öz əksini tapmışdır. Belə ki, ölkədə aparılan cinayət qanunvericiliyinin islahatı nəticəsində 1926-cı il martın 1-də Türkiyə Respublikasında qəbul edilən yeni Cəza Qanunu əsasən 1889-cu il İtaliya CM-nin əsas müddəalarından nümunə kimi istifadə etmişdir. Demək olar ki, Türkiyənin bu Cəza qanunu "1889-cu il köhnə İtalyan Cəza qanunundan eyni ilə tərcümə edilmişdir" [3,57], yəni onun mütləq resepsiyasıdır. 80 ilə yaxın müddətdə ölkədə cinayət və cəza məsələlərini tənzimləyən, mütərəqqi dəyişiklikləri özündə əks etdirən yeni Cəza Qanununun qəbul olunması tarixi bir hadisə olmuşdur. Qanun Türk burjua inqilabçıları olan kamalçıların ideallarını əks etdirirdi. Bu ideallar XVIII əsrin sonunda Fransada baş vermiş Böyük inqilabın idealları ilə həmahəng idi. Qanun "heç kəs cinayət qanunu ilə nəzərdə tutulmamış əmələ görə cəzalandırıla bilməz", "hamının qanun qarşısında bərabərliyi", qanunçuluq və digər bir sıra mühüm demokratik prinsipləri elan etmişdi.

Türkiyənin 1926-cı il Cəza Qanununda cinayət və cəza məsələləri, eləcə də xətalar haqqında məsələlər tənzimlənirdi. Bu qanun üç kitabdan ibarət olub, birinci kitab ümumi hissənin, ikinci kitab xüsusi hissənin məsələlərini, üçüncü kitab isə xətalara aid məsələləri əhatə etmişdir.

Sonrakı illərdə isə Türkiyənin 1926-cı il Cəza Qanununa dəfələrlə dəyişikliklər edildi. Önəmli dəyişikliklərdən biri ötən əsrin 30-cu illərinə təsadüf etmişdir. Belə ki, 1930-cu illərdə kommunist fəaliyyəti və təbliğatına görə cinayət məsuliyyəti müəyyən olundu.

Məlum olduğu kimi, dünya ölkələrində gedən sosial-iqtisadi, siyasi proseslər, qloballaşma hüququn, qanunvericiliyin, o cümlədən cinayət qanunvericiliyinin inkişafına ciddi təsir göstərir. Bu baxımdan Türkiyə də istisnalıq təşkil etmir. Türkiyə Respublika elan olunduğu dövrdə və sonrakı dövrlərdə istər ölkə daxilində, istərsə də ölkədən kənarda kifayət qədər önəmli proseslər və hadisələr baş vermişdir. Belə ki, XX əsrin 20-ci illərində SSRİ-nin yaranması ilə bütün dünya ölkələri kimi Türkiyə Cümhuriyyəti də kommunist təhlükəsi ilə üzləşmişdir. 1930-cu illərdə kommunist fəaliyyəti və təbliğatına görə cinayət məsuliyyətinin müəyyən olunması təsadüf deyildi. Dünya miqyasında ictimai-siyasi sistemlər arasında yaranmış qarşıdurma, soyuq müharibə və s. Türkiyədən də yan keçməmişdir. Həmin əsrin 50-60, 70, 80-ci illərində ölkə daxilində yaranmış sosial-siyasi gərginlik də bu qəbildən olan hadisələr sırasında göstərilə bilər.

Kommunist təhlükəsindən qorunmaq məqsədilə qəbul olunmuş 11 dekabr 1951-ci il tarixli Qanunla Cəza Qanununun 141 və 142-ci maddələrinə düzəliş edilməklə kommunistlərə qarşı mübarizə gücləndirilmişdir.

XX əsrin 70-ci illərində Türkiyədə növbəti siyasi gərginliyin yaranması ilə əlaqədar 1971-1973-cü illərdə cəza qanunvericiliyində bir sıra mühüm dəyişikliklər aparıldı. Belə ki, 1971-ci ildə ölkədə siyasi zorakılığın artmasına cavab olaraq insanların oğurlanmasına görə cinayət məsuliyyəti daha da gücləndirildi və hava gəmisini qaçırma, partlayıcı maddələrə sahibolma, onları hazırlama və nəql etmə, ictimai binalara qeyri-qanuni daxilolma kimi yeni cinayət tərkibləri müəyyən olundu.

Türk cinayət hüququ elmində qanuna edilmiş dəyişiklik və əlavələrin səbəbi

onunla izah olunur ki, birincisi, onların köməyilə Türk Cəza Qanunu yeni Qərbi Avropa cinayət qanunlarının özəlliklərini əks etdirən mühüm müddəalarla zənginləşdirildi; ikincisi, düzəliş və əlavələr praktikanın tələblərinə uyğunlaşdırıldı [4,8].

1926-cı il Türk Cəza Qanununda cinayətin maddi deyil, formal tərifi verilmişdir. Buna baxmayaraq türk cəza hüququ nəzəriyyəsində cinayət anlayışına maddi tərifin verilməsinə cəhdlər göstərilmişdir. Belə ki, Türk Cəza Qanununa verilmiş kommentariyanın müəllifi A.P.Gözübüyük cinayət əməlinə iki nöqteyi-nəzərdən baxır: ictimai hadisə və hüquqi fakt kimi. Onun fikrincə, sosial mənada əməlin cinayət kimi qiymətləndirilməsi ictimai rəylə, cəmiyyətin qərarı ilə əlaqəlidir. İctimai qaydanı pozan əməl cinayət sayılmalıdır. Bu mənada cinayət əməli ictimai hadisədir. Hüquqi nöqteyi nəzərdən cinayət əməli dedikdə dövlətin hüquq sistemi çərçivəsində əməlin nəticəsi kimi törədilməsinə görə cəza nəzərdə tutan əməl başa düşülür [4, 17]. Cinayəti ictimai (sosial) hadisə kimi göstərən doktor Gözübüyük eyni zamanda belə hesab edirdi ki, cəmiyyət ümumi maraqlarla bağlı olan vahid harmonik bütövlükdür.

Əksər türk hüquqşünaslarının fikrincə, cinayət əməli (cinayət hüquqpozması – suç) üç əlamətin: maddi, hüquqi və mənəvi əlamətin mövcudluğu ilə yaranır [4, 18].

Cinayətin maddi əlaməti əməldir (hareket). Əməl dedikdə qanunda təsvir olunmuş insanın müəyyən davranışı başa düşülür. Belə davranış həm müsbət, yəni icra edən, həm də mənfi, yəni icra etməyən ola bilər. Bu nöqteyi-nəzərdən müsbət və mənfi cinayət əməlləri fərqləndirilmişdir. Müsbət (icrai suçlar) əməllərə müəyyən hərəkətin icrası nəticəsində törədilmiş cinayət əməli aiddir. Bu növ cinayətlərdə şəxsin xarici aləmdə müşahidə olunan əməlləri də ehtiva olunur. Məsələn, silahdan açılmış atəşlə kimisə yaralama. Mənfi əməl dedikdə müəyyən hərəkəti icra etməmə nəticəsində törədilmiş cinayət əməli başa düşülür. Məsələn, qulluqçunun öz vəzifəsini icra etməməsi [2, 202-211]. Bununla belə, şəxsin davranışının iz qoyub-qoymamasının heç bir əhəmiyyəti yoxdur. Nalayiq söyüş heç bir maddi iz qoymamasına baxmayaraq pozuntunun tərkibini yaradır [6, 259].

Beləliklə, cinayət hüquqpozması – müəyyən əməl, aktdır (fiil) ki, bunun da aşağıdakı həyata keçmə mərhələləri mövcuddur. Niyyətin qərara keçməsi prosesində qəsd yaranır. Qəsdin gerçəkliyə keçməsi üçün hazırlıq hərəkətləri edilir, sonra isə təqsirli şəxs əməlin həyata keçməsinə, icrasına başlayır. Nəticə əldə olunduqda cinayət əməli başa çatmış olur. Cinayətkarın məsuliyyət dərəcəsi əməlin həyata keçmə dərəcəsindən və onun nəticələrindən asılıdır. Bir qayda olaraq, istər hazırlıq hərəkətləri, istərsə də cinayət hüquqpozmasının icrasına yönəlmiş hərəkətlər cəzalandırılır. İcra hərəkətləri başa çatıb-çatmamasından asılı olmayaraq nəticə əldə olunmadığı halda əməl cinayətə qəsd mərhələsində qalır [1, 259,266].

Cinayət hüquqpozmasının hüquqi əlaməti hüquqa zidd əməl sayılır. Hüquqa zidd əməl dedikdə zərərin vurulmasından insanları mühafizə etmək məqsədilə hüquq qaydası ilə müəyyən olunmuş göstəriş və müddəalara zidd davranış forması başa düşülür [2, 191].

Əməlin cinayət sayılması üçün onun qanunla qadağan olunmuş əməl kimi nəzərdə tutulması və cəzalanmalı olması tələb olunur. Bununla əlaqədar "Cəza hüququ" monoqrafiyasının müəllifi T.Taner qeyd edirdi ki, əməlin cinayət və cəzalanmalı olması məhkəmə təfsiri vasitəsilə deyil, yalnız gələcək zamana yönəlmiş cinayət əməlini müəyyən edən qanunlarla müəyyənləşdirilir [6, 137].

Cinayət hüquqpozmasının mənəvi əlaməti təqsirlilikdir (kusurluluk). Azərbaycanda və digər ölkələrdə olduğu kimi Türkiyənin cinayət hüququnda da (cəza hüququnda) əsas prinsiplərdən biri yalnız təqsirin mövcudluğu təqdirində törədilmiş

cinayət əməlinə görə cinayət məsuliyyəti yaranır. Əməl qanunda təsvir olunan davranışa uyğun və hüquqa zidd olduqda onu hələ cinayət kimi qiymətləndirmək düzgün olmaz. Şəxsi hüquqa zidd əmələ görə məsuliyyətə cəlb etmək üçün onun təqsirli olmasını müəyyən etmək lazımdır [4, 18].

Türk cəza hüququ nəzəriyyəsində hökm sürən konsepsiyaya əsasən təqsir (kusur)∗ iradənin qanuna qarşı yönəlməsi kimi izah olunur. Təqsir subyektivdir, buna görə məsuliyyət fərdidir. Cinayət əməlinin subyekti yalnız iradəyə malik olan şəxs ola bilər. Subyektin təqsiri ilə əməl arasında daxili səbəbli əlaqə mövcuddur. İradə (arzulama) törədilən əmələ və onun nəticələrinə, yaxud yalnız əmələ aid ola bilər. Təqsir qəsd və ehtiyatsızlıq formalarında təzahür olunur. Qəsd "suçlu iradənin tipik şəklidir" [3, 479]. Qəsd dedikdə düşünülmüş cinayət əməlinin həyata keçməsinə iradə yönümü başa düşülür. Qəsd təqsirli şəxsin nəticələrin baş verəcəyini dərk və arzu etməsini ehtiva edir. Ehtiyatsızlığa nəticələrlə bağlı olmayan cinayət əməli sayılan iradənin əmələ münasibəti kimi baxılır [1, 315, 323].

1926-cı il Türk Cəza Qanunu əvvəlki cəza qanunundakı cinayət hüquqpozmalarının üçhədli təsnifatından imtina etdi. Cinayət Məcəlləsi cinayət əməllərini cinayətlərə (çürüm) və xətalara (kabahat) böldü.

Türk cinayət qanunu təqsirin formasından asılı olaraq cinayət və cəzaları fərqləndirir. Cəza Qanununun 45-ci maddəsinə görə, bir qayda olaraq, yalnız qəsdən törədilən əməllər cinayət sayılır. Bununla belə, istisna hal da mövcuddur. Belə ki, nəticənin ağırlığı ilə əlaqədar qəsdən törədilməyən cinayətlər fərqləndirilir. Təqsirin istənilən formasında törədilən əməllər xətalara aid edilmişdir.

İki meyar – cəzanın növü və təqsirin forması əsasında cinayət əməlinin bu və ya digər kateqoriyaya aid olması müəyyən olunur. 1926-cı il Cəza Qanununun 11-ci maddəsinə görə ölüm cəzası, ciddi təcrid edilməklə (bir nəfərlik kamerada saxlamaqla), həbsxana cəzası, böyük məbləğdə cərimə (1 mindən 100 min lirəyə qədər həcmdə), ictimai fəaliyyəti qadağan etmə cəzaları nəzərdə tutan cinayət əməlləri aid edilmişdir. Xətalara isə qanun ciddi təcrid etmədən həbsxana, az məbləğdə cərimə (500-dən 10 min lirəyədək həcmdə), müəyyən peşə və ya sənətlə məşğul olmağı qadağan etmə nəzərdə tutan əməlləri aid edirdi. Cinayət məsuliyyəti 11 yaşdan müəyyən olunmuşdu.

Türkiyə Respublikasının hazırda qüvvədə olan Cəza Qanunu 2004-cü il sentyabrın 26-da qəbul edilmiş və 2005-ci il aprelin 1-də qüvvəyə minmişdir.

Türkiyənin 2004-cü il Cəza Qanunu iki kitab, 6 bölmə və 36 fəslə bölünən 345 maddədən ibarətdir. Qanunun birinci kitabında Ümumi hissəyə aid maddələr toplanmışdır və o, 2 bölmə, 5 fəslə bölünən 75 maddəni birləşdirir. Türkiyənin Cəza Qanununun ikinci kitabı Xüsusi hissənin məsələlərini əhatə edir. İkinci kitabda ölkədə cinayət sayılan əməllərin dairəsi müəyyən edilmişdir. Ona Xüsusi hissəyə aid olan 4 bölmə və 31 fəslə bölünən 270 maddə daxildir.

---

∗ Təqsirin elmi anlayışı psixologiya elminin, idrak təliminin inkişafı ilə bağlı olmuşdur. Minilliklər ərzində məsuliyyətin həlli üçün həlledici amil ziyan yetirən əməlin törədilməsi sayılmış, təqsirin aydınlaşdırılmasına əhəmiyyət verilməmişdir (Daha ətraflı bax: А.И.Косарев. Римское право. М.: 1986, s. 38). Xüsusən orta əsrlərdə cinayət hüququ dini ideyaların təsiri altında olmuş, cinayət törədən şəxsin təqsiri deyil, günahı "aydınлaşdırılmışdır". Ancaq klassik hüquq məktəbinin nümayəndələri tərəfindən təqsir məsuliyyətin vacib şərti kimi verilir. (Bax: Cinayət hüququ. Ümumi hissə. Prof. T.M.Qafarovun və dos. F.İ.Səməndərovun redaktəsi ilə. Bakı Universiteti nəşriyyatı, 1995, s. 52).

Hazırda xətalar haqqında 2005-ci il martın 30-da qəbul edilmiş ayrıca qanun "Xətalar Qanunu" qüvvədədir. Bundan başqa, Türkiyədə cəza nəzərdə tutan bir neçə digər qanun da mövcuddur: 10 iyul 1953-cü il tarixli "Odlu silahlar və bıçaqlar, digər alətlər haqqında qanun", 3 iyun 1986-cı il tarixli "Narkotik maddələr haqqında" Qanun 10 iyul 2003-cü il tarixli "Qaçaqmalçılıqla mübarizə" qanunu, 25 may 2005-ci il tarixli "Poçt haqqında" Qanun və s.

Türkiyənin qüvvədə olan Cəza Qanununun birinci bölməsində əsas prinsiplərdən və anlayışlardan bəhs edilir. Bu bölmənin birinci fəsli altı maddədən ibarətdir. Qanunda cinayətə anlayış verilmir. Qanunun birinci maddəsində qeyd edilir ki, cinayət qanununun məqsədi insan hüquq və azadlıqlarını, ictimai sabitliyi və təhlükəsizliyi, hüquqi dövləti, ictimai sağlamlığı və ətraf mühiti, cəmiyyətin əmin-amanlığını qorumaq, cinayətin törədilməsinin qarşısını almaqdan ibarətdir. Bu məqsədlərin həyata keçirilməsi üçün qanunda cinayət sayılan əməllərin dairəsi, cinayət məsuliyyətinin əsasları, cəza və təhlükəsizlik tədbirlərinin növləri müəyyən edilir və onlardan vasitə kimi istifadə olunur.

Cəza Qanununun 2-ci maddəsində qanunçuluq prinsipindən bəhs edilir. Əvvəlki cəza qanununda olduğu kimi, 2004-cü il tarixli Türk Cəza Qanununun 2-ci maddəsinin I bəndində göstərilir ki, "Qanunun cinayət hesab etmədiyi bir hərəkət üçün kimsəyə cəza verilə bilməz və təhlükəsizlik tədbiri tətbiq oluna bilməz. Qanunda yazılı cəzalardan və təhlükəsizlik tədbirlərindən başqa bir cəza və təhlükəsizlik tədbirinə hökm oluna bilməz". Qanunun bu tələbini şərh edən türk kriminalistləri diqqəti ona yönəldirlər ki, 2-ci maddədə yalnız cinayət məcəlləsi deyil, ümumən qanun nəzərdə tutulur. Göründüyü kimi, cəzaların tətbiqinin mümkünlüyü yalnız cinayət məcəlləsi ilə deyil, cinayət və cəzalar haqqında digər xüsusi qanunlara da aiddir. Bundan əlavə, ədəbiyyatda qeyd olunduğu kimi, qanunun 2-ci maddəsində (1926-cı il Cəza Qanunu nəzərdə tutulur) yalnız cəzalardan bəhs olunur, lakin bu halda qanun cəza sayılmayan təhlükəsizlik tədbirlərini də nəzərdə tutur∗. Bununla əlaqədar, qanunla birbaşa müəyyən olunmuş təhlükəsizlik tədbirləri istisna olmaqla digər təhlükəsizlik tədbirlərinin tətbiqinin mümkünsüzlüyü barədə nəticə çıxarılmışdır [3, 10, 12].

Qüvvədə olan cəza qanunvericiliyi üzrə törədilən cinayətin ağırlığına uyğun cəza və təhlükəsizlik tədbirlərinin tətbiqi, cinayət törətmiş şəxsə ədalətli cəza təyinini təmin edir.

Qanunun 3-cü maddəsində qeyd edilir ki, cəza qanununun tətbiqi zamanı irqi, dini, məzhəbi, milli, cinsi, siyasi və ya digər fikir və yaxud düşüncə, fəlsəfi inam, milli və ya sosial mənşə, maddi və digər xüsusiyyətlərə görə ayrı-seçkiliyə yol verilmir.

Cəza qanununun ikinci bölməsi cinayət məsuliyyəti, qəsd və ehtiyatsızlıq kimi məsələləri tənzim edən normalar müəyyən edir. Qanunda göstərilir ki, cinayət məsuliyyəti fərdi xarakter daşıyır.

Qanunun 21-ci maddəsinin göstərişinə görə, qəsd şəxsin əməlinin cinayət olduğunu yəqinliklə bilərək və arzu edərək həyata keçirməsidir. Türkiyənin Cəza Qanununda yanakı qəsd də nəzərdə tutulur. Qanunla yanakı qəsdlə törədilən cinayətə görə düzünə qəsdlə törədilən cinayətlə müqayisədə tətbiq edilən cəzalar üçdə birdən

---

∗1926-cı il Türk Cəza Qanununun 28-ci maddəsi ictimai təhlükəsizlik orqanlarının nəzarətinə verilməsi kimi təhlükəsizlik tədbiri cəza adlansa da, CQ-nın 11-ci maddəsi ilə nəzərdə tutulmuş cəzalar sisteminə daxil edilməmişdir. Bu cür vəziyyətin səhv olması bəzi türk hüquqşünasları tərəfindən etiraf olunmuşdur (Bax: Gözüböyük A.R. Türk ceza kanunu açılaması, 1980, cilt 1, 113). Sonralar 28-ci maddə qanundan çıxarıldı.

yarıya qədər azaldılır.

Respublikanın qüvvədə olan Cəza Qanununa görə ehtiyatsızlıqdan törədilən əmələ görə qanunda xüsusi olaraq göstərilən hallarda məsuliyyət yaranır.

Əvvəlki cəza qanunvericiliyindən fərqli olaraq 2004-cü il Cəza qanununa görə cinayətin subyekti 12 yaşdan müəyyən olunur. Bu yaşda cinayət törədənlərə ancaq tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilir. 12 yaşdan 15 yaşına qədər olan yetkinlik yaşına çatmayanlar psixi xüsusiyyətinə görə törətdiyi əməli və onun hüquqi nəticələrini dərk edə bilmədiyi halda cinayət məsuliyyəti daşımır. Qanuna görə 15 yaşından 18 yaşına qədər olan şəxslərin törətdiyi cinayətə görə müddətli azadlıqdan məhrumetmə növündə cəzalar tətbiq edilir. Onlara ağır ömürlük həbs cəzası əvəzinə 18 ildən 24 ilə qədər həbs cəzası, ömürlük azadlıqdan məhrumetmə əvəzinə 12 ildən 15 ilə qədər müddətə həbs cəzası müəyyən edilir. Yetkinlik yaşına çatmayanlara təyin edilən digər cəzalar üçdə bir qədər azaldılır, həbs cəzası isə 12 ildən artıq ola bilməz.

2002-ci ilə qədər Türkiyədə ölüm cəzası saxlanılmışdı [5, 629]. Ötən əsrin 90-cı illərində 1926-cı il Cəza Qanununun 16 maddəsi (müəyyən düzəlişlərlə) dövlət, hökumət və Konstitusiya əleyhinə yönələn cinayətlərə görə ölüm cəzasını nəzərdə tuturdu. Bundan başqa, adamöldürmə və bəzi digər ağır cinayətlər daxil olmaqla səkkiz maddə də ölüm cəzasını nəzərdə tuturdu. Hərbi-cinayət Məcəlləsinin on iki maddəsi, «Xəyanət haqqında» Qanunun iki maddəsi və «Qaçaqmalçılıq haqqında” Qanunun bir maddəsi də məcburi cəza kimi ölüm cəzasını nəzərdə tuturdu. 2004-cü il tarixli Cəza qanunu isə ölüm cəzasını cəzalar sırasından çıxarmışdır.

Beləliklə, Türkiyə Respublika elan olunduqdan sonra ölkədə mütərəqqi dəyişiklikləri əks etdirən yeni (1926-cı il) Cəza Qanunu qəbul olundu. Lakin cəmiyyət inkişaf etdikcə, zaman dəyişdikcə cinayət qanunvericiliyi qarşısında yeni tələblər irəli sürülmüş və ona dövrün, zamanın tələbindən irəli gələn mütərəqqi dəyişikliklər edilmişdir. 2004-cü il tarixli yeni Cəza qanunu cinayət hüququ elminin əldə etdiyi son nailiyyətləri əks etdirən mükəmməl qanundur.

## ƏDƏBİYYAT


1. Dönmezer S., Erman S. Nezari ve tatbiki Ceza hukuku. İstanbul: Beta basım evi, 1959. Cilt 1, 527 s.
2. Ejder Y. Hukuk sözlüyü. Yetkin yayın evi. Ankara: Sevinç matbaası, 1982, 1382 s.
3. Erem F. Türk ceza hukuku. Ankara: Sevinç matbaası, 1971, 625 s.
4. Gözübüyük A.R. Türk Ceza Kanunu açılaması. İstanbul: Yetkin yayın evi, 1980. Cilt 1, 528 s.
5. Məlikova M.F., Nəbiyev E.Q. Müasir dövlət və hüquq tarixi. Elm və həyat. Bakı: 2003, 636 s.
6. Taner T. Ceza hukuku. İstanbul: Beta basım evi, 1953, 600 s.


## НЕКОТОРЫЕ ВОПРОСЫ ПРЕСТУПЛЕНИЯ И НАКАЗАНИЯ В УГОЛОВНОМ ЗАКОНОДАТЕЛЬСТВЕ ТУРЕЦКОЙ РЕСПУБЛИКИ


**Э.Г.НАБИЕВ**


## РЕЗЮМЕ


В статье рассматриваются некоторые вопросы уголовного права Турции, такие, как: понятие преступления и наказания, вины, основные признаки уголовного правонарушения, а также изменения, внесенные в уголовное законодательство страны в период после 20-х годов XX века под влиянием социально-политических процессов.

## SOME QUESTIONS OF A CRIME AND PUNISHMENT IN CRIMINAL LEGISLATION OF THE REPUBLIC OF TURKEY

**E.G.NABIYEV**

**SUMMARY**

The article deals with some questions of criminal law of Turkey such as the concepts of a crime and punishment, guilt, the basic signs of criminal offence, as well as the changes in the criminal legislation of the country after 20s of the XX century under the influence of sociopolitical processes.